# 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür!

25 (1331) 26 iyun - 3 iyul 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## İLHAM ƏLİYEV: «COP29-A EV SAHİBLİYİ EDƏCƏK ÖLKƏ KİMİ YAŞIL ENERJİYƏ KEÇİD PROSESİNDƏ ÖNDƏ GEDƏNLƏRDƏN OLMAQ BİZİM ÜZƏRİMİZƏ DÜŞƏN ÖHDƏLİKDİR»

***İyunun 21-də "Euronews" televiziyasında Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərindən reportaj yayımlanıb.***

Həmin reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Euronews"a müsahibəsi də yer alıb.

Həmin müsahibənin tam variantını təqdim edirik.




**Müxbir:** Cənab Prezident, hər zaman Sizi burada görmək olduqca xoşdur. Bu gün Siz "Masdar" və Zati-aliləri Sultan Əhməd Əl-Cabir ilə çox mühüm xəbər verdiniz. Xahiş edirik, planlarınız barədə daha çox məlumat verərdiniz.

**Prezident İlham Əliyev:** Bəli, həqiqətən əla tədbirdir və o, əslində, bizim yaşıl gündəliyimizi nümayiş etdirir və eləcə də göstərir ki, Azərbaycan nəinki ənənəvi enerji mənbələrinə, o cümlədən bərpaolunan enerjiyə sərmayə yatıranlar üçün cəlbedicidir. "Masdar" bizim bərpaolunan enerji sahəsində strateji tərəfdaşımızdır. Ötən ilin oktyabrında biz 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışını etdik. Bu gün isə ümumi gücü 1 qiqavat olan üç Günəş və külək enerjisi stansiyalarının təməlqoyma mərasimini keçirdik. Bu, yalnız başlanğıcdır, çünki biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq. Hədəfimiz belədir. Potensial var. Siz Günəşi, istəyimizi və o cümlədən küləyi görə bilərsiniz. Yaxşı sərmayə mühiti var. Bu, həqiqətən göstərir ki, ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. COP29-a ev sahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir.

**Müxbir:** Ənənəvi enerji sektorunun olması ilə yanaşı, yeni yaşıl bərpa olunan enerjiyə keçidə gəldikdə, çətinliklər hansılardır?

**Prezident İlham Əliyev:** Bilirsiniz, əslində, hər yeni iş qeyri-müəyyənliklərlə dolu olur. Lakin bizim böyük tərəfdaşlarımız var. Artıq qeyd etdim, "Masdar" strateji tərəfdaşdır. Həmçinin "ACWA Power" var. Daha sonra, BP sərmayədarlarımız sırasındadır və bizimlə işləməyi planlaşdıran digər ölkələrin bir çox şirkətləri var. Bir sözlə, biz neft və qaz sahəsində hər şeyi başdan-ayağa bilirik. Burada isə biz təzə başlayırıq. Çətinliklərə gəldikdə, bu, milli enerji şəbəkəsi ilə bağlıdır, çünki biz onu gücləndirməliyik ki, sərmayədarların verdiyi mümkün qədər çox enerjini qəbul edə bilsin. Digər çətinlik ötürülmə xətləri ilə bağlıdır, çünki bu halda biz öz qonşularımızla fəal çalışmalıyıq. Azərbaycanın özünə planlaşdırdığımız qədər bərpa olunan enerji lazım deyil və bu səbəbdən hədəfimiz ixracdır. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, o, əsasən indi Avropaya lazım olan qaydada nəql olunsun. Yalnız daxili gündəliyimizdən asılı olan və həll edilməli bir çox məsələlər, şübhə etmirəm ki, tam reallaşacaq. Lakin beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik.

**Müxbir:** Bakı Enerji Həftəsində 37-dən artıq ölkədən gəlmiş 300-dən çox iştirakçının olması digər şirkətlərin bu işə sadiqliyini və bu konfransın nəyə görə enerji sektorunda qlobal liderliyi əks etdirdiyini göstərir. Elə deyilmi?

**Prezident İlham Əliyev:** Mən də belə düşünürəm. Tədbir artıq 30 ildir keçirilir. Birincisi, o, hələ 1994-cü ildə təşkil olunmuşdur. İkincisi, ölkələrin coğrafiyasına və şirkətlərin sayına baxsanız görərsiniz ki, iştirakçıların sayı artır. Heç də hər enerji tədbiri ABŞ Prezidentinin müraciəti şərəfinə nail olmur. Bu tədbirin bütün illəri belə olub və bu, əslində, onun unikal mahiyyətini və gücünü nümayiş etdirir. Düşünürəm ki, bütün bu amillər həmin tədbiri müxtəlif məsələləri həll edən, inkişaf yolunu göstərən, çox inkişaf etmiş və inklüziv platformaya çevirir. Birincisi, Xəzər Neft və Qaz Sərgisi oldu. Sonra biz qaz hasilatına başladıq. Tədbir artıq Xəzər Neft və Qaz Sərgisi və Konfransı adını aldı. Sonra biz bərpaolunan enerji sahəsində işə başladıq və tədbir fərqli sektorları əhatə edən Bakı Enerji Həftəsinə çevrildi. Siz qısa müddət ərzində bir ölkədə hər istiqamətdə - neft, təbii qaz və indi isə yaşıl enerji sahələrində uğurları görə bilərsiniz.

**Müxbir:** Yeri gəlmişkən, Siz xüsusi Sərəncamla bu ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdiniz. Elə deyilmi?

**Prezident İlham Əliyev:** Bəli, ev sahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər.

**Müxbir:** Cənab Prezident, hər zaman Sizi görməkdən məmnunuq.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

## MƏRKƏZİ NƏBATAT BAĞINDA YENİDƏNQURMA İŞLƏRİ BAŞA ÇATIB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Botanika İnstitutunun yeni inşa olunmuş binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verib.

Bildirilib ki, 45 hektardan artıq ərazini əhatə edən bağda 247 növ ağac və 162 növ kol bitkisi qorunur. Yenidənqurma zamanı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun 1935-1938-ci illərdə inşa edilən inzibati binası qəzalı vəziyyətdə olduğu üçün burada yeni bina tikilib. Beş mərtəbədən ibarət olan yeni binanın ümumi sahəsi 3700 kvadratmetrdir. Binanın birinci mərtəbəsi laboratoriya sektorlarından ibarətdir. Burada bitki ehtiyatları və etnobotanika, həmçinin toxum bankı, bitki introduksiyası şöbələri yerləşir. Binanın ikinci mərtəbəsində 80 nəfərlik akt zalı, üç laboratoriya, müdafiə şurası, Botanika İnstitutunun elmi şurasının katibliyi, mühasibatlıq yerləşir. Üçüncü mərtəbədə isə geobotanika, ictimaiyyətlə əlaqələr, eksperimental botanika və beynəlxalq əlaqələr şöbələri fəaliyyət göstərəcək. Ali bitkilər sistematikası və herbari fondu dördüncü mərtəbədə yerləşir. Botanika İnstitutunun Herbari Fondu 1936-cı ildə institut yarandığı vaxtdan fəaliyyət göstərir. Burada Azərbaycanla yanaşı, digər ölkələrin altı yüz minə yaxın flora növü qorunur.

Eyni zamanda, Mərkəzi Nəbatat Bağının 1937-ci ildə tikilmiş və tamamilə yararsız hala düşmüş 900 kvadratmetrlik aypara şəkilli inzibati binası da əsaslı təmir edilib. Mərkəzi Nəbatat Bağı ərazisində tikintisi davam etdirilən müasir tipli oranjereyaya da baxış keçirilib.

Qeyd edək ki, Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə formalaşmağa başlayıb. Hazırda Prezident İlham Əliyev tərəfindən ölkəmizdə bitki biomüxtəlifliyinin qorunması və səmərəli istifadə olunması məsələlərinə xüsusi diqqət yetirilir. Mərkəzi Nəbatat Bağında yenidənqurma işləri məhz Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilib.

Botanika İnstitutunda elmin informasiya təminat sisteminin təkmilləşdirilməsi və gücləndirilməsi məqsədinə xidmət edən 4 yerli və 2 beynəlxalq məlumat bazası fəaliyyət göstərir.

Botanika İnstitutu bu il COP15-də təsis olunmuş "Quraq Ərazilərdə Biomüxtəlifliyin Mühafizəsi İttifaqı"na (BCAA-Biodiversity Conservation Alliance for Arid Land) üzv seçilib.



# Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib





İyunun 21-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib.

Gündəliyin təsdiqindən sonra Milli Məclisin sədri bildirib ki, gündəlikdə 13 məsələ var. Birinci məsələ Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi ilə bağlıdır.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət ölkəmizi müasir dövrün ən dinamik inkişaf edən və beynəlxalq aləmdə xüsusi çəkisi olan dövlətlərindən birinə çevirib. Azərbaycan dövlətinin başçısına xas olan müstəsna liderlik qabiliyyəti və yenilməz siyasi iradə, eyni zamanda, ölkədə mövcud olan güclü milli həmrəylik cəmiyyət və dövlət həyatının bütün sahələrində böyük uğurlara yol açıb.

Xüsusən, qeyd edilməlidir ki, Azərbaycan dünya miqyaslı müxtəlif tədbirlərin keçirildiyi bir məkana çevrilib. Paytaxt Bakı nüfuzlu beynəlxalq təşkilatların toplantılarına və digər tədbirlərə uğurla ev sahibliyi edir. Və bu tədbirlərdən biri də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29-dur. Bu tədbir noyabr ayında Azərbaycanda keçiriləcək. Ölkələrin təmsilçiliyi baxımından bu mötəbər beynəlxalq tədbir üçün Azərbaycanın ev sahibi seçilməsi bizim dövlətimizə növbəti dəfə göstərilən böyük etimad və hörmətin ifadəsi olmuşdur.

Spiker qeyd edib ki, bununla birlikdə Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası da noyabr ayında Azərbaycanda keçiriləcək.

Bu tədbirlər ilə əlaqədar bütün dünyanın diqqəti Bakıya yönələcək və şəhər on minlərcə xarici qonağı qəbul edəcək. Qlobal əhəmiyyətli bu toplantıların Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına imkan yaradacaq.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, 2020-ci ilin fevral ayında Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında verdiyi tövsiyələrə uyğun olaraq ötən dövrdə parlamentin qanunyaratma və qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, qanunların icrasına nəzarət və təmsilçilik funksiyalarının müasir tələblər səviyyəsində qurulması yolunda lazımi addımlar atılıb. Milli Məclis möhtərəm cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və əsaslı islahatların hüquqi bazasının daha da möhkəmləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb.

Spiker qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə görə, Milli Məclisin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda, Konstitusiyanın 981-ci maddəsinin II hissəsinə əsasən növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər Milli Məclisin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

Beləliklə, ölkəmizdə həm dünya səviyyəli tədbirlərin, həm də ictimai-siyasi həyatımızda böyük əhəmiyyət kəsb edən parlament seçkilərinin vaxtı noyabr ayına təsadüf edir. Spiker qeyd edib ki, bu beynəlxalq tədbirlərin və parlament seçkilərinin yüksək səviyyədə təşkil edilməsi dövlətimiz üçün ən böyük əhəmiyyətə malik olan məsələlərdir.

Bununla birlikdə, COP29 Konfransının və digər tədbirlərin keçirildiyi dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının, ərazi bütövlüyümüzün bərpasından sonra Milli Məclisin yeni tərkibdə təmsil edilməsinin məqsədəuyğun olması da, hamıya aydındır. Milli Məclisin yeni çağırışının tam formalaşdırılması ölkəmiz üçün böyük əhəmiyyətli bu tədbirlər zamanı parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsinə, habelə normayaratma fəaliyyətinin fasiləsiz həyata keçirilməsinə şərait yaradacaqdır.

Digər tərəfdən, beynəlxalq tədbirlərə hazırlıq işlərinin görülməsi və həmin tədbirlərin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər sahələrdə müəyyən məhdudiyyətlərin tətbiq olunması da qaçılmazdır.

Bu baxımdan parlament seçkilərinin demokratik prinsiplərə uyğun şəkildə təşkil olunması, habelə vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakının, səsvermədə öz iradəsini azad və sərbəst ifadə etməsinin təmin olunması da dövlətin əsas vəzifələrindən biridir.

Spiker deyib ki, bütün bunları nəzərə alaraq, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri ona müraciət ediblər. Onlar Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi məsələsinə baxılmasını xahiş ediblər.

# Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi artırılır



Bu barədə məsələ Milli Məclisin iyunun 25-də keçirilən iclasında müzakirə edilən "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklikdə qeyd olunub.

Dəyişikliyə əsasən, Fondun büdcəsi 6 919 860 000,0 manatdan 6 949 860 000,0 manata qədər artırılır. Həmçinin, fondun məcburi dövlət sosial sığorta haqları üzrə gəlirləri 5 288 135 400,0 manatdan 5 478 135 400,0 manata, qeyri-büdcə sektoru üzrə 3 387 100 000,0 manatdan 3 577 100 000,0 manata artırılır.

Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait isə 1 392 000 000,0 manatdan 1 232 000 000,0 manata qədər azaldılır.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Milli Məclis bu ilin büdcələrinə dəyişiklikləri qəbul etdi

Milli Məclisin növbədənkənar sessiyasının iyunun 25-də keçirilən plenar iclasında "2024-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi III oxunuşda müzakirəyə çıxarılıb.

Sənədi parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib.

İclasda maliyyə naziri Samir Şərifov da iştirak edib.

Dəyişikliklərdə 3 milyard 796 milyon manat məbləğində yeni xərclərin həyata keçirilməsi nəzərdə tutulub. Həmin xərclərin bir sıra prioritet istiqamətlərə, o cümlədən işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinə 1 milyard 160 milyon manat, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması üçün 807 milyon manat, infrastruktur və digər layihələrin maliyyə təminatı üçün 1 milyard 184 milyon manat, beynəlxalq fəaliyyət üzrə tədbirlərin maliyyələşdirilməsi və digər zəruri xərclər üzrə 499 milyon manat, zəruri əsaslı xərclər, təmir və sair üçün 146 milyon manat yönəldilməsi nəzərdə tutulur.

Yenidən baxılma ilə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 39 milyard 707 milyon manat məbləğində, dövlət büdcəsinin gəlirləri isə 36 milyard 353 milyon manat həcmində proqnozlaşdırılır. 2024-cü ilin dövlət büdcəsinin kəsiri 764 milyon manat artaraq, 3 milyard 354 milyon manata çatdırılır.

Müzakirələrdən sonra dəyişiklik layihəsi səsverməyə çıxarılaraq qəbul edilib.

# Əmək pensiyalarının ödənilməsi xərcləri artırılır



Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsində əhaliyə ödənişlər üzrə xərclər artırılır.

Bu barədə məsələ Milli Məclisin iyunun 25-də keçirilən iclasında müzakirə edilən "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklikdə qeyd olunub.

Dəyişikliyə əsasən, qeyd olunan xərclər 6 681 580 000,0 manatdan 6 706 580 000,0 manata qədər artırılır. Bununla yanaşı, əmək pensiyalarının ödənilməsi xərcləri 6 500 000 000,0 manatdan 6 525 000 000,0 manata, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri 78 500 000,0 manatdan rəqəmləri 78 530 000,0 manata, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri 130 110 000,0 manatdan 135 080 000,0 manata qədər artırılır.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinə dəyişiklik təsdiq edildi

Bu barədə məsələ Milli Məclisin iyunun 25-də keçirilən iclasında müzakirə edilən "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsinə dair izahatda əksini tapıb.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial islahatlar çərçivəsində əhalinin məşğulluğu ilə bağlı tədbirlərin gücləndirilməsi məqsədilə ölkədə işsizlikdən sığorta sisteminin tətbiqinə başlanılması işsiz (işaxtaran) şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması və aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi üçün çevik maliyyə mexanizmini formalaşdırıb.

İşsizlikdən sığorta fondunun 2023-cü il və cari ilin 4 ayı üzrə büdcə gəlirlərinin icra göstəricilərinin təhlilinə əsasən ilin sonuna işsizlikdən sığorta haqları üzrə mədaxillərin artımı gözlənilir.

Beləliklə, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə" Qanun layihəsində işsizlikdən sığorta haqları üzrə daxilolmaların 4 700 000,00 manat artırılaraq 179 976 800,0 manatdan 184 676 800,0 manata çatdırılması təklif olunur. Eyni zamanda gəlirlərin qeyri-büdcə sektoru üzrə olan hissəsinin 139 300 000,0 manat olacağı proqnozlaşdırılır.

Cari ilin xərc məbləğində dürüstləşmə nəzərdə tutulmadığından, 2023-cü ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış hissəsi 57 953 200,0 manatdan 53 253 200,0 manata və ya 4 700 000,0 manat azaldılıb.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# "Azgreentech" MMC-yə Sabirabad Sənaye Məhəlləsinin rezidenti statusu verilib



2,3 milyon manata qurulacaq müəssisədə plastik tullantıların təkrar emalı layihəsi həyata keçiriləcək. İnvestisiya dəyəri 2,3 milyon manat olan müəssisədə 20 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır.

Bundan başqa, "Azgreentech" MMC tərəfindən respublikanın bir çox bölgələrində (Bakı şəhəri və Abşeron yarımadası xaric) plastik tullantıların toplama məntəqələri qurulacaq ki, bu da həmin ərazilərdə əlavə iş yerlərinin açılmasına və əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli töhfə verəcək.

Müəssisənin istehsal edəcəyi məhsul çeşidlərinin böyük hissəsi ixrac üçün nəzərdə tutulub.

# Azərbaycanda sığorta ödənişləri kəskin artıb



2024-cü ilin yanvar-may dövründə Azərbaycanın 17 sığorta şirkəti tərəfindən 643 milyon 754 min manat sığorta haqları hesablanıb, 274 milyon 837 min manat sığorta ödənişləri verilib.

Bu barədə Mərkəzi Bankdan bildirilib.

Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin eyni dövründə sığorta şirkətləri tərəfindən 566 milyon 434 min manat sığorta haqları hesablanmış, 174 milyon 436 min manat sığorta ödənişləri həyata keçirilmişdi.

Beləliklə, 2024-cü ilin ilk 5 ayında ötən ilin ilk 5 ayı ilə müqayisədə hesablanmış sığorta haqları 77 milyon 320 min manat və ya 13,6%, sığorta ödənişləri isə 100 milyon 401 min manat və ya 57,6% artıb.

# Xalqının adını ucaldan görkəmli alim, əziz dost



*Bu günlərdə üzücü bir xəbər məni sarsıtdı. Tanınmış azərbaycanlı alim, tibb elmləri doktoru, professor, Böyük Britaniya Kral Cəmiyyətinin üzvü, Amerika Birləşmiş Ştatları Puerto-Riko Universitetinin professoru Səbzəli Cavadovun vəfatı xəbərini alıb çox məyus oldum.*

Bu, tək mənim üçün yox, bütövlükdə Azərbaycan elminə ağır itkidir. Doğma Vətənimizi xaricdə yüksək səviyyədə təmsil edən, uzun illər Kanadanın və ABŞ-ın universitetlərində çalışmış, Azərbaycanın tanınmış biokimyaçı və fizioloq alimi, tibb elmləri doktoru, professor Səbzəli Əbil oğlu Cavadov 2024-cü il iyunun 4-də 64 yaşında vəfat etmişdir.

Səbzəli Cavadov 1960-cı il mayın 20-də Xaçmaz rayonunda anadan olmuşdur. 1977-ci ildə Bakı şəhərində Kimya-biologiya təmayüllü respublika liseyini bitirmiş, 1977-1983-cü illərdə Piroqov adına 2-ci Moskva Tibb İnstitutunun (indiki Piroqov adına Rusiya Milli Tədqiqat Tibb Universiteti) Tibbi-biologiya fakültəsində, 1983-1986-cı illərdə SSRİ Tibb Elmləri Akademiyası Ümumittifaq Kardiologiya Elmi Mərkəzinin Eksperimental Kardiologiya İnstitutunun aspiranturasında təhsil almışdır. 1986-cı ildə "Biokimya" və "Kardiologiya" ixtisasları üzrə tibb elmləri namizədi elmi dərəcəsini almışdır. 1986-1993-cü illərdə Azərbaycana dönərək Elmi-Tədqiqat Kardiologiya İnstitutunda respublikada ilk Eksperimental kardiologiya laboratoriyasını təşkil etmişdir. 1992-ci ildə Rusiya Kardiologiya Elm-İstehsalat Kompleksi (indiki Rusiya Milli Tibbi Elmi-Tədqiqat Kardiologiya Mərkəzi) və Rusiya Xalqlar Dostluğu Universitetinin müştərək elmi şurasında doktorluq dissertasiyasını müdafiə etmişdir. 1993-2003-cü illərdə Azərbaycan Tibb Universitetində Biokimya kafedrasının professoru olmuş və eyni zamanda Hüceyrə patologiyasının biokimyası problem elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir. 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədr müavini vəzifəsində çalışmış və Komissiyanın Rəyasət Heyətinin üzvü olmuşdur.

2003-2008-ci illərdə Kanadanın Qərbi Ontario Universitetinin (indiki Qərb Universiteti) Tibb fakültəsinin dəvəti ilə Kanadaya köçərək elmi tədqiqatlarını bu universitetdə davam etdirmiş, 2009-cu ildən ABŞ Puerto Riko Universitetinin Tibb fakültəsinin professoru və Ürək mitoxondrilərinin tədqiqi elmi laboratoriyasının rəhbəri olmuşdur.

Tanınmış alim ABŞ Stenford Universiteti tərəfindən hazırlanmış reytinq cədvəlinə görə,



2022 və 2023-cü illərdə dünyanın ən çox istinad edilən top 2% alimlərinin siyahısına daxil edilmişdir.

Professor S.Cavadov Amerika Kardioloqlar Cəmiyyətinin fəxri üzvü (2015), Amerika Fizioloqlar Cəmiyyətinin (2009), Amerika Redoks Biologiya və Tibb Cəmiyyətinin (2015), Amerika Milli Sağlamlıq İnstitutunun (2017) və Amerika Kardiologiya Cəmiyyətinin elmi qrant komitələrinin üzvü (2015), İngiltərə (2012), Belçika (2010), Çexiya (2011) və Xorvatiyanın (2010) elm fondlarının üzvü, tibbi və biotibbi tədqiqatlar sahəsində 10-dan çox elmi jurnalın redaksiya heyətinin üzvü, 4 jurnalda qonaq redaktor və 30-dan çox jurnalda rəyçi olmuşdur.

Səbzəli Cavadov vətənpərvərliyi və milli dövlətçiliyə sədaqəti ilə vətənini xaricdə yüksək səviyyədə təmsil edirdi. *O, hər il vətənə gələrkən bir sıra ali təhsil ocaqlarında, Azərbaycan Tibb Universitetində, Xəzər Universitetində, Vəli Axundov adına Tibbi Profilaktika İnstitunda, Bakı Dövlət Universitetində konfranslar, mühazirələr və seminarlarla çıxış etməklə yanaşı, gənc tədqiqatçılara elmi işlərində məsləhətlər və müəyyən problemlərin həll olmasında tövsiyələr verirdi. Hazırda onun Azərbaycanda hazırladığı yüksəkixtisaslı kadrlar həm xarici ölkələrdə və həm də ölkə daxilində müxtəlif vəzifələrdə çalışırlar.*

Səbzəli müəllimlə bizi uzun illərin dostluğu bağlayırdı. İndi onun haqqında keçmiş zamanda danışmaq mənə çox çətin və ağırdır. Vətəndən uzaqda yaşasa da, bütün xoş, əlamətdar günlərimdə mənə zəng vurar, hal-əhval tutardı.

Azərbaycana hər gəlişində görüşər, söhbətləşərdik. Vətən sevgisi, gələcək üçün narahatlığı hər sözündə, hər cümləsində sezilirdi. Bu təəssübkeş, mehriban insanın gülərüz çöhrəsi həmişəlik yaddaşıma həkk olunub...

Mən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) Rəyasət heyətinin üzvü olduğum illərdə Səbzəli müəllim də Komissiyanın sədr müavini vəzifəsində işləyirdi (1993-2003-cü illər). Elm və təhsil işçilərinin attestasiyasına rəhbərlik etmiş şəxs idi Səbzəli müəllim. AAK-ın sədri isə mərhum akademik Azad Mirzəcanzadə idi.

**Səbzəli müəllim Azad müəllimi özünə örnək bir rəhbər, müəllim hesab edirdi. Xatırlayıram, Azad müəllim haqqında təsisçisi olduğum "İqtisadiyyat" qəzetinə müsahibəsində deyirdi:** "Mərhum Azad Mirzəcanzadə ensiklopedik biliklərə malik olan, neft və digər mayelərin mexanikasının öyrənilməsi sahəsində keçmiş SSRİ-də və eləcə də dünyada tanınmış alimlərdən biri olmuşdur. Azərbaycanda Azad müəllim səviyyəsində idrak və analitik qabiliyyətə malik ikinci alim tanımıram. Məhz onun dəvəti ilə 1993-cü ildə AAK-a gəlmiş və 10 ilə yaxın sədr müavini vəzifəsində çalışmışam. Bəlkə də, idarə etməkdə böyük təcrübəsi olmasa da, onun elmin bütün sahələrini bilməsi, güclü analitik təfəkkürü və prinsipiallığı alimlərin attestasiya olunmasında, onların elmi və təhsil potensiallarının araşdırılmasında və qiymətləndirilməsində mühüm rol oynayırdı. Əlbəttə, **"elmi adlar və dərəcələr yalnız layiq olan alimlərə verilirdi"**, - demək yanlış olardı, çünki AAK-a daxil olan çoxsaylı sənədlərin içərisində alimlik adına layiq olmayanların sayı çox idi və ümumi daxil olan işlərin yalnız 15-20 faizi AAK-dan mənfi rəy alırdı. Hesab edirəm ki, həqiqətdə bu faiz 45-50% olmalı idi. Azad müəllim AAK-da attestasiya prosesinə və elmi ekspertizaya respublikanın tanınmış alimlərini cəlb etmişdi. Bu gün böyük məmnuniyyətlə 1993-2003-cü illərdə bilavasitə Azad müəllimin rəhbərliyi altında AAK-ın rəyasət heyətinin üzvlərini – tanınmış professor və akademikləri - Adilə Namazovanı, Ziyad Səmədzadəni, mərhum Yaşar Qarayevi, mərhum İlham Məmmədovu, mərhum Ələkbər Süleymanovu, Rafiq Mehdiyevi, Leyla Məmmədovanı, Süleyman Əliyarovu, Rövşən Xəlilovu, Bəhram Əsgərovu və Fəxrəddin Veysəlovu yada salıram. Bu alimlərin Azərbaycanın müstəqilliyinin ilk illərində respublikamızda elmi və pedaqoji kadrların attestasiyasında oynadığı rol çox böyük və əvəzolunmazdır. Attestasiya prosesində yaranmış gərginlik, xüsusilə AAK-dan elmi ad və dərəcələri almayanların böyük narazılığı və müxtəlif dövlət və hökumət orqanlarına saysız-hesabsız şikayəti mənim AAK-da keçirdiyim bu dövrü çox mürəkkəb və əsəbi bir dövr kimi yadda saxlamışdır. Lakin bütün bu çətinliklərə baxmayaraq, AAK-dakı bu 10 illik fəaliyyətimi Azərbaycanın müstəqilliyinin ilk illərində respublikanın dövlətçiliyinə xidmətin bir hissəsi kimi qiymətləndirirəm. Bu gün də Azad müəllimin hər bir azərbaycanlı üçün örnək olası bir mülahizəsi öz aktuallığını itirməyib. O deyirdi ki, hamı soruşur - **"Azərbaycan mənim üçün nə edib?"**, lakin hər bir azərbaycanlı özündən soruşmalıdır: **"Mən Azərbaycan üçün nə etmişəm?"...**



AAK-la bərabər Azad müəllim həm də eyni müddətdə - 1993-2003-cü illərdə Dövlət Elm və Texnika Komitəsinin sədri işləyirdi. İki mühüm dövlət vəzifəsindən başqa o, ADNA-da kafedra müdiri və müxtəlif ictimai təşkilatlarda fəaliyyət göstərirdi. Qeyd etməliyəm ki, AAK-ın fəaliyyəti və Azad müəllimin mövqeyi mərhum prezident Heydər Əliyev tərəfindən birmənalı dəstəklənir və yüksək qiymətləndirilirdi".

Bəli, Səbzəli müəllim sözünü deməyi bacaran, etirazını bildirən və bunu elmi dəlillərlə sübut edən bir alim idi. O, səmimi dost, qayğıkeş ata, mehriban baba, gözəl ailə başçısı idi.

Bu yazını hazırlayarkən Səbzəli müəllimlə olan şəkillərimizə baxıram. Birlikdə işlədiyimiz illəri, hər dəfə Vətənə dönəndə görüşlərimizi xatırlayıram. Bütün şəkillərdə çöhrəsində təbəssüm var. Və yaxşı ki, var. Bundan sonra o, mənim xatirimdə, qəlbimdə gülərüz, mehriban, əziz bir dost kimi qalacaq.

Dostum Səbzəli Cavadovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**



# Azərbaycanda ilk dəfə COP 29 çərçivəsində yeni ixtisaslar yaradılır

***"Azərbaycanda ilk dəfə olaraq Peşə Təhsil sistemində COP 29 ili çərçivəsində yeni ixtisaslar yaradılır".***

Bunu iyunun 24-də İqtisadi Zonaların İnkişafı Agentliyinin Peşə Təhsil Mərkəzində keçirilən "Məzun günü"ndə Mərkəzin direktoru Kənan Bağırov deyib.

"Ölkəmizdə keçiriləcək COP29 ili çərçivəsində ilk dəfə olaraq peşə təhsil sistemində yeni ixtisas (Alternativ enerji qurğu və avadanlıqlarının istismarı) yaradılıb ki, bu ixtisas üzrə də İZİA-nın Peşə Təhsil Mərkəzinə 2 qrup üzrə 40 nəfər tələbənin qəbulu nəzərdə tutulur"- K.Bağırov bildirib.

Qeyd edilib ki, İsveçrə universiteti "SMBS – Swiss Montreux Business School" arasında əməkdaşlıq çərçivəsində ilk dəfə olaraq Peşə Təhsil Mərkəzində ikili diplom proqramından istifadə olunacaq. İlkin mərhələdə "İnformasiya kommunikasiya texnologiyaları üzrə texnik" ixtisası üzrə təhsil alan tələbələr bu proqramdan faydalanacaqlar.

## "COP29 yaşıl iqtisadiyyata keçid sahəsində təşəbbüslərin genişləndirilməsi üçün imkanlar yaradır"

Bunu bazar ertəsi Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov "Yerli şirkətlərin təşviqi üzrə 5-ci sərgi"nin açılış mərasimində deyib.

*"Bu il Azərbaycanda COP29 kimi mötəbər beynəlxalq tədbirin keçirilməsi və Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl Dünya Uğrunda Həmrəylik İli" elan edilməsi yaşıl iqtisadiyyata keçid sahəsində təşəbbüslərin daha da genişləndirilməsi üçün imkanlar yaradır"*, - deyə o, əlavə edib.

Onun sözlərinə görə, sahibkarlığın inkişafı üçün qanunvericilik bazasının yaradılması və bu fəaliyyətlərin dəstəklənməsi üçün müasir təşkilati modellərin tətbiqindən başlayaraq, həyata keçirilən mühüm sistem tədbirləri nəticəsində mühüm uğurlar əldə edilib, özəl sektor mühüm yer tutur. İqtisadiyyatda tutduğu mövqe, ölkənin qeyri-neft sektorunun, məşğulluğun və xarici ticarətin inkişafına töhfə verir.

"Sahibkarların cəmiyyətimizdə rolu artıb, onlar iqtisadi islahatların gedişində mühüm dəstəkləyici qüvvəyə çevriliblər, məhz özəl sektorun fəal fəaliyyəti ilə Azərbaycan iqtisadiyyatının inkişaf dinamikasında müsbət meyillər davam edir. Bu gün müəssisələr yüksək rəqabətli və çevik bir mühitdə fəaliyyət göstərirlər. Bu dəstəyin həcmi və məzmunu dövrün reallıqlarına uyğun olaraq mütəmadi olaraq təkmilləşdirilir, onun davamlılığının artırılması və yüksək əlavə dəyər yaradan iqtisadi inkişafın yeni sürücülərinin yaradılması".

# Mərkəzi Bank Dünya Bankı ilə Ölkə Tərəfdaşlıq Çərçivəsini müzakirə edib

Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AMB-dan bildirilib ki, görüş zamanı DB ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə icra olunan, perspektivdə duran layihələr və təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin Dünya Bankının Azərbaycanda həyata keçirilən islahatlara öz müsbət töhfəsini verəcək yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin hazırlıq prosesi ilə bağlı gündəmdə olan mühüm məsələlər müzakirə olunub.

## Qarabağın bərpası və yenidən qurulmasında iştirak edən şirkətlərə kreditlər güzəştli şərtlərlə verilir

"Cari ildə Qarabağın bərpası və yenidən qurulmasında iştirak edən şirkətlərə kreditlər güzəştli şərtlərlə verilir".

Bu sözləri Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Osman Xaliyev "5-ci yerli şirkətlərin tanıtım sərgisi"nin açılışında çıxışı zamanı deyib.

O bildirib ki, güzəştli kreditin minimum məbləği 5 milyon manatdır və 7 il müddətinə 15 faizlə verilir ki, bunun da 10 faizini dövlət subsidiya şəklində ödəyir.




"Fondun əsas məqsədi sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərməkdən ibarətdir. Bu istiqamətdə həyata keçirilən işlərin nəticəsi olaraq istehsal sahələrində fəaliyyət göstərən bir sıra şirkətlər inkişaf edərək nəinki yerli, eləcə də xarici bazara çıxış əldə ediblər. Fonda daxil olan 48 şirkətin müraciətinə baxılıb və onlara 1,5 milyard manat kredit ayrılıb. Fond istehsal sahələrinin artması və xarici bazarlara Azərbaycan istehsalı olan məhsulun çıxarılması istiqamətində fəaliyyət göstərən sahibkar və şirkətlərə xüsusi diqqət verir", - deyə Osman Xaliyev vurğulayıb.

# BVF Azərbaycanı dünyanın 7 ən cəlbedici investisiya ölkəsindən biri elan edib

"Bu il Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etməsi yaşıl iqtisadiyyata transformasiya sahəsində təşəbbüslərin daha da artırılması üçün fürsətlər yaradır".

Bunu iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov "5-ci yerli şirkətlərin tanıtım sərgisi"ndə bildirib.

O qeyd edib ki, cari il həmçinin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib ki, bu, çox əlamətdardır. "Bu həm ölkənin beynəlxalq aləmdə imicinin artırılması, həm də sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi və biznes proseslərinin müasir




dövrün tələblərinə uyğunlaşdırılması baxımından əhəmiyyətlidir. Yeni texnologiyaların tətbiqi biznes xərclərinin azalmasına, rəqabət qabiliyyətinin artırılmasına və məhsuldarlığın yüksəldilməsinə imkan yaradır. Hazırda təşkil olunan sərgi də müvafiq sahədə mütərəqqi təcrübələri nümayiş etdirmək və bizneslərin şəbəkələşməsi ilə onlar arasında təcrübə mübadiləsini təşviq etmək üçün mühüm platformadır. Sərginin yarada biləcəyi digər bir müsbət məqam ölkə iqtisadiyyatına əlavə investisiyaların yatırılması imkanıdır. Bu gün məhsullarını nümayiş etdirən şirkətlər alıcılar ilə yanaşı potensial investorlar da cəlb edə bilərlər", - deyə nazir müavini vurğulayıb.

S. Məmmədov bildirib ki, Beynəlxalq Valyuta Fondunun hesabatında Azərbaycan cari il üçün dünyanın 7 ən cəlbedici investisiya ölkəsindən biri elan edib.

# İtaliyaya karbohidrogen tədarükünün həcmi açıqlanıb

**"İtaliya ilə iqtisadi tərəfdaşlıqda enerji sahəsində əməkdaşlıq xüsusi rol oynayır".**

Bunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov İtaliyanın Respublika Günü münasibətilə keçirilən tədbirdə deyib.

***"İtaliya Azərbaycandan neft və qaz idxalına görə Avropa ölkələri arasında birinci yerdədir. Belə ki, ötən il İtaliyaya 11 milyon tondan çox neft ixrac edilib, ölkəyə qaz tədarükü 9,4 milyard kubmetr təşkil edib"***, - o deyib.

Nazir həmçinin, İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğunu da vurğulayıb: **"Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 15,6 milyard dollar təşkil edib".**

"İki ölkə arasında tarixi dostluq və strateji tərəfdaşlıq bütün sahələrdə ən yüksək səviyyəyə çatıb. Bu mənada qarşılıqlı səfərlər əsas rol oynayır ki, bunun sayəsində dövlətlərarası münasibətlər yeni mərhələyə qədəm qoyub.




Ölkələrimiz arasında əlaqələr təkcə iki ölkənin deyil, həm də böyük bir coğrafiyanın maraqlarını təmsil edir. Ölkələrimizin G7 və COP29-a sədrliyi əməkdaşlıq üçün yeni imkanlar açır", - Şahbazov əlavə edib.

## Azərbaycan ilk dəfə kiçik su elektrik stansiyaları üçün karbon kreditləri alacaq

2024-cü ilin əvvəlində Kəlbəcər rayonunda yerləşən "Çıraq-1", "Çıraq-2", "Soyuqbulaq", "Qamışlı" və "Meydan", eləcə də Laçın rayonunda yerləşən "Mirik" və "Qarıqışlaq" kiçik su elektrik stansiyaları üçün karbon sertifikatlarının alınması və bununla karbon kreditləri üzrə könüllü bazarda iştirakın təmin edilməsi məqsədilə "Azərenerji" ASC və "SOCAR Trading" əməkdaşlığı çərçivəsində Qətərdə yerləşən "Global Carbon Council" və İsveçrədə yerləşən "Gold Standard" qurumlarına müraciət edilib.

Bu barədə "AzərEnerji"dən məlumat verilib.

Bildirilib ki, yuxarıda qeyd edilən qurumlar tərəfindən yeddi kiçik su elektrik stansiyası üzrə sənədlərə ilkin baxış keçirilib və qeydiyyat proseduru çərçivəsində sahə auditi təyin olunub. Sahə auditi mərhələsinin icrası məqsədilə audit şirkəti cəlb edilib. Bu mərhələ 10 iyun 2024-cü il tarixindən başlayaraq, üç gün ərzində Azərbaycanda səfərdə olan ekspert tərəfindən həyata keçirilib.

Qeydiyyat proseduru davam edən yeddi kiçik su elektrik stansiyasının fəaliyyəti nəticəsində il ərzində 45-50 min ton karbon dioksid qazının atmosferə atılmasının qarşısının alınması nəzərdə tutulub.

Qeyd edək ki, işğaldan azad edilən ərazilərdə həyata keçiriləcək bu layihə Azərbaycandan karbon kreditləri üzrə könüllü bazarda iştirak üçün müraciət edilən ilk layihələrdəndir.

# 150-dən çox yerli şirkətin məhsul və xidmətlərinin sərgisi keçirilir



Sərginin məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş kütləyə tanıtmaq, onlar üçün yeni bazarlar açmaq, satış imkanlarını genişləndirmək və şirkətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

İyunun 24-də Bakı Ekspo Mərkəzində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı ilə "5-ci Yerli şirkətlərin tanıtım sərgisi"nə start verilib.

Sərginin açılışına həsr olunmuş tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

# Bakıda adambaşına düşən yaşıllıq normadan 5 dəfə azdır

**"Ekoloji problem həllə də qalmaqdadır".**

Bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva Xankəndidə keçirilən elmi-praktiki konfransda deyib.

O bildirib ki, problemlərin həlli üçün böyük işlər görülmədir, böyük maliyyə lazımdır:

"Bunlar mərhələli şəkildə həyata keçirilir. Problemlərin həlli üçün yeni texnoloji işlər aparılır. Ətraf mühitə olan risklər də müşahidə olunur. Qanunvericiliyin təkmilləşməsi və maarifləndirmə aparılmasının müsbət nəticələri müşahidə edilir.

Məlumat üçün bildirim ki, Bakıda orta hesabla bir adama 5 kvadrat metr yaşıllıq düşür. Norma burada 20-25 kvadrat metrdir. Görüləsi işlər çoxdur. Yaşıllıqların artırılmasına bütün dövlət orqanları qoşulur. Bu, çox müsbət haldır".

# Azərbaycanla Hindistan arasında ticarət dövriyyəsi azalıb

Bu ilin yanvar-may aylarında Azərbaycanla Hindistan arasında ticarət əməliyyatlarının həcmi 657 milyon 39 min ABŞ dolları təşkil edib.

Bu barədə Trend-ə Dövlət Gömrük Komitəsindən bildirilib.

Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 6,2% azdır.

Hesabat dövründə Hindistan ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 3,56%-i həcmində olub.

Beş ayda Azərbaycan Hindistana 569 milyon 840 min ABŞ dolları dəyərində məhsul ixrac edib ki, bu da illik müqayisədə 6,9% azdır. Bu dövrdə Azərbaycanın ümumi məhsul ixracının 5,12%-i Hindistanın payına düşüb.

Yanvar-may aylarında Azərbaycan Hindistandan məhsul idxalını illik müqayisədə 1,7% azalaraq 87 milyon 199 min ABŞ dollarına çatdırıb. Dövr ərzində Hindistan ilə idxal əməliyyatları ölkənin ümumi idxalının 1,19%-ni təşkil edib.



# Azad olunmuş ərazilər üzrə idxalı ƏDV-dən azad edilən xammal və materialların siyahısına dəyişiklik edilib

İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısına dəyişiklik edilib.
Baş nazir Əli Əsədov bununla bağlı müvafiq qərar imzalayıb.

# Ölkədə plastmas ixracı və idxalı azalıb

Bu ilin yanvar-may aylarında Azərbaycan 163, 838 milyon ABŞ dolları dəyərində 180 756 ton plastmas və ondan hazırlanan məmulatlar ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsindən bildirilib.
Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 19,03% və 19,7% azdır.
Hesabat dövründə ölkənin ümumi ixracının 1,47%-i, qeyri-neft sektoru ixracının isə 12,99%-i plastmas və ondan hazırlanan məmulatların payına düşüb.
Beş ayda Azərbaycana 206,449 milyon ABŞ dolları dəyərində 117 059 ton plastmas və ondan hazırlanan məmulatlar idxal edilib ki, bu da illik müqayisədə müvafiq olaraq 3,9% və 0,4% azdır.
Dövr ərzində sözügedən məhsulların idxalının ölkənin ümumi idxalında payı 2,83% olub.



# Qara və əlvan metalların ixracına görə gömrük rüsumları artırılacaq

Azərbaycan Prezidenti İlham Əliyev “Qara və əlvan metal qırıntı və tullantıları ixracının tənzimlənməsi sahəsində əlavə tədbirlər” və “Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə” 17 aprel 2001-ci il tarixli fərmanı ləğv edib.
Fərmanla Nazirlər Kabinetinə qara və əlvan metal (qiymətsiz metal) qırıntı və tullantılarının ixracına tətbiq olunan gömrük rüsumlarının artırılmasını və müəyyən edilməsi ilə bağlı 3 ay vaxt verilib.
Həmçinin Nazirlər Kabineti ixrac gömrük rüsumlarının ödənilməsindən yayınmanın qarşısının alınması üçün metal qırıntı və tullantılarının emalı nəticəsində əldə olunan məmulatlar üzrə ixrac gömrük rüsumlarının müəyyən edilməsini və mövcud ixrac gömrük rüsumlarının optimallaşdırılmasını 4 ay müddətində təmin etməli və bu fərmandan irəli gələn digər məsələləri həll etməlidir.



# Bakıda ticarət dövriyyəsinin həcmi 12,5 milyard manatı ötüb



Cari ilin yanvar-may aylarında Bakıda ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz artaraq 12 milyard 537,7 milyon manat təşkil edib.
Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz artaraq 6 milyard 679,4 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 6,3 faiz artaraq 5 milyard 858,3 milyon manata bərabər olub.
İstehlak məhsullarının 38,3 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 46,3 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 15,4 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.

# İctimai iaşə dövriyyəsinin həcmi artıb

Yanvar-may aylarında paytaxtın ictimai iaşə dövriyyəsinin həcmi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 5,7 faiz artaraq 600,5 milyon manat olub.
Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, hüquqi şəxslər tərəfindən ictimai iaşə dövriyyəsi 332,6 milyon manat olub. Bu, ümumi dövriyyənin 55,4 faizini təşkil edib.



# Bakıda orta əməkhaqqı 10%-ə yaxın artıb



Bu ilin yanvar-aprel aylarında Bakıda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 1 min 282,6 manat təşkil edib.
Bu barədə Bakı şəhər Statistika İdarəsindən məlumat verilib.
Bildirilib ki, paytaxtda orta aylıq əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 9,4% artıb.
Qeyd edək ki, bu ilin yanvar-aprel aylarında Azərbaycanda muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 10,2% artaraq 1 min 007,5 manata çatıb.

# "Azərbaycanda ötən il meyarı böyüyən şirkətlərin sayı 5 mini ötüb"

“Azərbaycanda 2023-cü ildə meyarı böyüyən şirkətlərin sayı 5 mini ötüb, halbuki 2022-ci ildə bu göstərici təqribən 4 600 təşkil edib”.
Bunu İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Yerli şirkətlərin tanıtım sərgisində deyib.



*"Şirkətlərin böyüməsi təkcə onların dövriyyəsinin artması ilə deyil, eyni zamanda texniki imkanlarının genişlənməsi, mütərəqqi biznes proseslərinin tətbiqi və məhsuldarlığının yüksəlməsi ilə müşayiət olunur. Bu da ölkə iqtisadiyyatının dayanıqlığının artırılmasında və şaxləndirilməsində mühüm rol oynayır"*, - O.Məmmədov bildirib.
O, 5-ci Yerli şirkətlərin tanıtım sərgisindən bir sıra gözləntilərin olduğunu vurğulayıb:
"İlk növbədə, ümid edirik ki, sərgidə iştirak edən şirkətlər satış göstəricilərini daha da genişləndirə biləcəkdir. Ötən ilin statistikasına əsasən KOB sektoru üzrə dövriyədə artım müşahidə edilir. Ölçülə bilən digər bir gözlənti iştirakçı şirkətlərin inkişaf etməsi və böyüməsidir. Ötən illərin rəqəmləri burada müsbət dinamikanın olduğunu göstərir. Nəhayət, ümid edirəm ki, sərgi təkcə yerli deyil, həmçinin, xarici bazarlarda da Azərbaycanı uğurla təmsil edə biləcək yeni KOB brendlərinin formalaşmasına töhfə verəcəkdir. Biz bugünkü sərgiyə beynəlxalq şirkətlərin, xarici biznes təşkilatlarının və assosiasiyaların nümayəndələrini də dəvət etmişik. Məqsədimiz onların vasitəsilə yerli şirkətlərimizin xarici auditoriyaya tanıdılmasına imkan yaratmaqdır".
Onun sözlərinə görə, bu gün ölkədə sahibkarlığın inkişafı üçün dövlət tərəfindən müxtəlif istiqamətlərdə geniş dəstək tədbirləri həyata keçirilir.

# Paytaxt sənayesində qeyri-dövlət sektorunun payı açıqlanıb

Cari ilin yanvar-may aylarında paytaxt sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 22 milyard manat təşkil edib.
Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, sənaye məhsulunun 76,1 faizi mədənçıxarma, 20,6 faizi emal, 2,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 82,7 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 90,3 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 9,7 faiz təşkil edib.



İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında iyunun 1-nə 543,7 milyon manatlıq hazır məhsul ehtiyatı olub.
Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 37 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

# Azərkosmos Çexiya şirkəti ilə Əməkdaşlıq Memorandumu imzalayıb

Azərkosmos Çexiyanın “PEKASAT SE” şirkəti ilə Əməkdaşlıq Memorandumu imzalayıb. Memorandum aşağıorbitli peyklərin əməliyyatları üçün yerüstü stansiyaların qarşılıqlı istifadəsini və yeni biznes imkanlarını genişləndirmək məqsədini daşıyır.
Hər iki tərəf həm Azərbaycanda, həm də Çexiyada öz müştərilərinə telemetriya, yeni idarəetmə siqnallarının qəbulu və peykə komandaların göndərilməsi, peyklərdən böyük həcmdə məlumatların ötürülməsi və yerüstü infrastrukturun istismarı üzrə təcrübə mübadiləsi sahəsində əməkdaşlıq edəcək.



Qeyd edək ki, “PEKASAT SE” Çexiyanın Brno şəhərində yerləşən Avropanın səhmdar şirkətidir. Şirkət özünün yerüstü stansiya qurğuları vasitəsilə peyk operatorları və digər müştərilərinə anten sistemləri üzrə xidmətlər, İT və “bulud” həlləri təklif edir.

# İctimai “Wi-Fi”dan istifadə zamanı baş verə biləcək kiberhücumlar hansılardır?

İctimai internet şəbəkəsi əlaqədə qalmağın rahat yolu olsa da, bu, özündə təhlükəsizlik risklərini də daşıyır.
Bu barədə Elektron Təhlükəsizlik Xidməti məlumat yayıb.
Bunun səbəbi isə bir çox ictimai “Wi-Fi” şəbəkələrinin (restoran, kafe, park, aeroport) bağlantıya açıq olması və şifr tələb etməməsidir. Bu da öz növbəsində təhlükəsizlik boşluğu yaradaraq kiberdələduzların cihazınıza daxil olmasını asanlaşdırır.
İctimai “Wi-Fi”dan istifadə zamanı baş verə biləcək kiberhücumlar bunlardır:

**“Ortadakı adam (MITM)” hücumu**

Kiberdələduzlar rəsmi görünən saxta “Wi-Fi” şəbəkəsi qurur və qoşulma baş verdikdə cihazınızla internet arasında axan məlumatlar ələ keçirilir, həmçinin giriş məlumatlarınız (istifadəçi adı və şifr), bank kartı və digər həssas məlumatlarınız oğurlanma riski ilə üzləşir.

**“Sessiya oğurluğu (SIDEJACKING)” hücumu**

Sessiya oğurluğu hücumunda kiberdələduz sizin ictimai “Wi-Fi” şəbəkəsi ilə qoşulduğunuz veb-saytdan kuki fayllarınızı oğurlayır və sizin giriş məlumatlarınıza ehtiyac duymadan sizi veb-saytda təqlid edir.

**Zərərli Hotspot (EVIL TWIN)**

Kiberdələduzlar bəzən istifadəçiləri “Wi-Fi” şəbəkəsinə qoşulmağa sövq etmək üçün “Free PublicWi-Fi”, “FreeWi-Fi” kimi adlarla açıq şəbəkələr yaradırlar. Qoşulduqdan sonra kiberdələduz tərəfindən cihazınıza zərərli proqramların yüklənməsi və digər proseslər baş verə bilər.
Qeyd edək ki, ictimai “Wi-Fi” şəbəkələrindən istifadə edərkən diqqətli olmalısınız. Bu səbəbdən maliyyə və digər həssas əməliyyatları yerinə yetirərkən şəxsi mobil şəbəkənizdən istifadə etməyinizi tövsiyə edirik.

# 3 июля - День Независимости Республики Беларусь











Каждый год 3 июля Республика Беларусь отмечает главный государственный праздник – День Независимости. Решение о праздновании Дня Независимости 3 июля было принято в 1996 году на республиканском референдуме. В том же году декретом президента Александра Лукашенко был установлен государственный праздник - День Независимости Республики Беларусь (День Республики).

Праздник стал символом национального возрождения Беларуси. В этот день в 1944 году, в ходе операции «Багратион» Минск - столица Республики Беларусь - был освобожден от нацистских захватчиков. За одобрение вопроса "Перенести День независимости Республики Беларусь (День Республики) на 3 июля - день освобождения Беларуси от гитлеровских захватчиков в Великой Отечественной войне" проголосовали 88,18% участников голосования на референдуме.







День независимости в Республике Беларусь - всенародный праздник, который широко и с размахом отмечается гражданами государства. 80 лет назад город Минск – был освобождён от немецко-фашистских захватчиков. Независимость Беларуси стоила жизни каждого третьего её жителя. Сегодня мы отдаём дань памяти и уважения всем тем, кто сражался на фронтах Великой Отечественной войны, участвовал в партизанском и подпольном движении, трудился в тылу ради жизни будущих поколений, дав возможность нам, их потомкам, создать свободную и развитую страну – Республику Беларусь. Безграничная благодарность поколению победителей всегда будет жить в наших сердцах!

* * *

Дипломатические отношения между Республикой Беларусь и Азербайджанской Республикой установлены 11 июня 1993 года. За это время сформированы крепкие традиции двусторонних отношений – открытость, доверие, дружба и взаимовыручка. Одним из важнейших достижений прошедшего периода является вывод двусторонних отношений на уровень стратегического партнёрства.






# Операция "Багратион": архивные кадры освобождения Беларуси летом 1944-го. Бои под Могилевом







Из оперативной сводки Совинформбюро за 24 июня 1944 года: "На Могилевском направлении наши войска, после сильного артиллерийского обстрела и бомбардировки позиций противника с воздуха, перешли в наступление".




23 июня, Минск / Корр. БЕЛТА/. Подготовка Белорусской наступательной операции началась весной 1944 года. Исходя из военно-политической обстановки и предложений военных советов фронтов, Генштаб разработал ее план. После его всестороннего обсуждения в Ставке Верховного главнокомандования 22-23 мая было принято окончательное решение о проведении стратегической наступательной операции. Ее предварительный этап символически начался в третью годовщину нападения Германии на СССР - 22 июня 1944 года. На эту дату фронт протяженностью свыше 1100 км в Беларуси проходил по линии озера Нещердо, восточнее Витебска, Орши, Могилева, Жлобина, по реке Припять, образуя огромный выступ. Здесь оборонялись войска группы армий "Центр", которые располагали хорошо развитой сетью железнодорожных и шоссейных дорог для широкого маневра по внутренним линиям. Немецко-фашистские войска занимали заранее подготовленную, глубоко эшелонированную (250-270 км) оборону, которая опиралась на развитую систему полевых укреплений и естественные рубежи. Оборонительные полосы проходили, как правило, по западным берегам многочисленных рек, имевших широкие заболоченные поймы. Белорусская наступательная операция под кодовым названием "Багратион" началась 23 июня, завершилась 29 августа 1944 года. Замысел ее состоял в том, чтобы одновременными глубокими ударами на шести участках прорвать оборону противника, расчленить его войска и разбить по частям. В дальнейшем предполагалось нанести удары по сходящимся направлениям на Минск с целью окружения и уничтожения основных сил врага восточнее столицы Беларуси. Затем наступление планировалось продолжить по направлению к границам Польши и Восточной Пруссии.

В подготовке и осуществлении операции "Багратион" участвовали выдающиеся советские военачальники.

В сражениях участвовали 1-й Прибалтийский, 1-й, 2-й, 3-й Белорусские фронты - всего 17 армий, в том числе 1 танковая и 3 воздушные, 4 танковых и 2 кавказских корпуса, конно-механизированная группа, Днепровская военная флотилия, 1-я армия Войска Польского и белорусские партизаны. В ходе операции партизаны перерезали пути отступления противнику, захватывали и строили новые мосты и переправы для Красной армии, самостоятельно освободили ряд районных центров, участвовали в ликвидации окруженных группировок противника.

Операция состояла из двух этапов. На первом (23 июня - 4 июля) проведены Витебско-Оршанская, Могилевская, Бобруйская, Полоцкая, Минская операции. В результате 1-го этапа Белорусской операции были разгромлены главные силы группы армий "Центр".

На втором этапе (5 июля - 29 августа) проведены Вильнюсская, Белостокская, Люблин-Брестская, Шяуляйская, Каунасская операции.

В результате наступления советских войск 1 июля освобождены Бегомльский, Шарковщинский, Гресский, Борисовский районы; 2 июля - Плисский, Докшицкий, Старобинский, Смолевичский, Логойский, Червенский, Куренецкий, Столбцовский районы. В ходе Минской операции войска 2-го и 1-го Белорусских фронтов освободили от немецко-фашистских захватчиков города Червень и Столбцы.

**Источник: https://www.belta.by/society 23 июня 2024**








# Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti Azərbaycan Hərb Tarixi Muzeyini ziyarət edib

*24 iyun 2024-cü il tarixində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti 26 iyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə Azərbaycan Hərb Tarixi Muzeyini ziyarət ediblər.*



Muzeyin bələdçisi ziyarətçilərə bu muzey haqqında ətraflı məlumat verərək qeyd edib ki, Azərbaycan Hərb Tarixi Muzeyi müdafiə nazirinin əmri ilə 1992-ci il dekabrın 10-da yaradılıb. İki mərtəbə və 13 zaldan ibarət muzey Azərbaycanın hərb tarixini, hərb sənətini dövrlər üzrə öz ekspozisiya və vitrinlərində əks etdirir. Muzeydə dünya şöhrətli siyasi xadim, dahi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən fotolar, sənədlər və ona məxsus əşyalar, hərbi geyim nümunəsi, ordu quruculuğu ilə bağlı gördüyü işlər, keçirdiyi görüşlər, həmçinin Silahlı Qüvvələrin qoşun növləri üzrə hərbi geyim nümunələri də nümayiş olunur. Muzeydə Azərbaycanın milli qəhrəmanlarından 211 şəxsə aid ayrıca zal var.



Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti şəhidlərə həsr olunmuş stendin qarşısında dayanaraq, onların və gömrük əməkdaşı Ülvi Hacıyevin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər. Qeyd edək ki, 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan gömrük əməkdaşı Ülvi Hacıyev Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Muzeyin dəyərli eksponatlarından olan, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun və Azərbaycanın Milli Qəhrəmanı, tank komandiri Albert Aqarunovun idarə etdiyi tankın maketləri böyük maraq doğurur. Muzeyin əməkdaşı ziyarətçilərə tanklar, PDM və KDM, təyyarə və helikopterlər, HHM vasitələri, HDQ silah və sursatları, gəmilər, artilleriya və zenit qurğuları haqqında da məlumat verib.

Azərbaycan Hərb Tarixi Muzeyi ordumuzun şanlı tarixinin təbliğində mühüm rol oynayır. Bu gün muzeydə əsrlər öncə istifadə edilən silahlardan tutmuş, hazırda Azərbaycan Ordusunda yer alan müasir silahların maketləri və həqiqi vahidləri sərgilənir. Qarabağ müharibəsi dövründə istifadə edilən silahlar, şəhid hərbçilərə məxsus geyimlər, şəxsi əşyalar, həmçinin, açıq havada sərgilənən 130-dan artıq hərbi texnikalara baxış ziyarətçilərdə xoş təəssürat yaradıb.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Son beş il Aİ tarixində ən uğursuz dövrdür

Macarıstanın Baş naziri Viktor Orban Avropa Komissiyasının sədri Ursula von der Lyayenin bu vəzifəyə ikinci müddətə seçilməsinə qarşı çıxıb.

Orban bu barədə "Funke" media qrupunun jurnalistinin sualına cavab verərkən deyib.

***"Yaşıl transformasiya tam uğursuz idarəçilikdir, miqrasiya paketi heç bir problemi həll etmir. Avropanın daha yaxşı liderliyə ehtiyacı var və bunu bacaran kifayət qədər istedadlı siyasətçilər mövcuddur",*** - deyə Viktor Orban bildirib. Avropa Parlamentinə seçkilərin nəticələrindən danışan siyasətçi onun uğursuzluqlarını xüsusilə vurğulayıb. "Son beş il Avropa İttifaqı tarixində ən uğursuz dövrdür. Avropa Komissiyasının və Brüsseldəki elitanın nəticələri zəif olub", - deyə Macarıstanın hökumət başçısı əlavə edib.

Qeyd edək ki, Ursula fon der Lyayen ikinci müddətə Avropa Komissiyasının rəhbəri olmaq istəyir. Bunun üçün Aİ liderləri onun namizədliyini yeni Avropa Parlamentinin plenar iclasında səsverməyə çıxarmalıdır və o, ən az 361 deputatın səsini qazanmalıdır.

# Fransızlar Makronu Romanı yandıran Neronla müqayisə edirlər



Fransa Prezidenti Emmanuel Makronun Avropa Parlamentinə seçkilərdə məğlubiyyətindən sonra növbədənkənar seçkilər təyin etmək qərarının ardından onu Romanı yandıran imperator Neronla müqayisə edirlər. Fransızlara görə, Makron Milli Assambleyada 577 yer uğrunda 4 min namizədin mübarizə apardığı siyasi mina sahəsini yandırıb. Bu barədə İspaniyanın ABC qəzetinin onlayn versiyası yazır.

"Le Figaro" nəşri "Bizim Neronumuz var" sərlövhəsi ilə yazı dərc edib, onun ardında "Le Point" əlavə edir: "Makron Neronla müqayisə ediləcək bir narsisdir". İllüstrator Alen Qutal isə "Mediapart"da Macron-Neron yanan Roma-Fransanın seyr edir rəsmini dərc edib və deyir: ***"O, kibritlə oynadı və yanğın törətdi. Mənə fleyta və ya lira verin ki, sonuncu mahnını improvizə edə bilim".***

Neron Qədim Roma imperatorudur və antik dövrün yazıçısı Svetoniyin iddiasına görə, Romanı öz zövqünə uyğun yenidən tikmək üçün bu şəhəri atəşə verib.

Sabiq Baş nazir Eduard Filipp bəyan edir: ***"Prezident ətrafındakı çoxluğu məhv etdi", keçmiş daxili işlər naziri Jan-Lui Debre isə hesab edir ki, Makron sol və sağçı populizmin yüksəlişinə töhfə verib".***

Milli Assambleyanın buraxılmasının təşəbbüskarı olan Emmanuel Makron "minor" əhvali-ruhiyyədə olduğunu yazan nəşr əlavə edir ki, bütün proqnozlara görə, onun yaratdığı partiya böyük uğursuzluq ərəfəsindədir; bir vaxtlar sadiq köməkçiləri və yoldaşları olmuş insanlar indi ondan uzaqlaşmağa çalışırlar.

Parisin "Le Figaro" qəzetinin qeyd etdiyi kimi, "Prezidentin ətrafındakı siyasi mənzərənin üzərini çatlar bürüyüb və onun populyarlığının azalması səbəbindən müttəfiqlər indi planlarını dəyişmək məcburiyyətindədir". Onun nüfuzu indi ən aşağı səviyyədədir - fransızların dörddə üçü Makrona etibar etməkdən imtina edir. Ondan açıq şəkildə narazı qalanlar arasında "Demokratik hərəkat"dan olan mərkəzçilərin tarixi lideri Fransua Bayru da öz tərəfdarlarına seçki kampaniyası zamanı Makronun adını çəkməməyi tapşırıb.




Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500